TQDK

Bilik qiymətləndirilir

**AZƏRBAYCAN RESPUBLİKASI**
**TƏLƏBƏ QƏBULU ÜZRƏ DÖVLƏT KOMİSSİYASI**

SINAQ İMTAHANI İŞTİRAKÇISININ

# YADDAŞ KİTABÇASI

**Aşağıdakıları imtahana gətirmək qəti QADAĞANDIR!**



Sınaq imtahanının nəticələrini
**www.tqdk.gov.az**
internet səhifəmizdən öyrənə bilərsiniz!

**BAKI – 2011**

## SINAQ İMTAHANINDA İŞTİRAK ETMƏK ÜÇÜN AŞAĞIDAKILARA ƏMƏL ETMƏLİSİNİZ:

**1.** Siz imtahanın başlanması vaxtından 1 saat əvvəl imtahan verəcəyiniz binanın qarşısına gəlməli (imtahan binası, imtahanın tarixi və vaxtı haqqında məlumat imtahana buraxılış vərəqəsində göstərilmişdir), özünüzlə mütləq qara və ya tünd göy rəngdə yazan, mürəkkəb axıtmayan diyircəkli qələm və aşağıdakı sənədləri gətirməlisiniz:

***a) Şəxsiyyət vəsiqəsi;***

***b) "İmtahana buraxılış vərəqəsi".***

**❗ DİQQƏT! Göstərilən sənədlərdən biri olmadıqda və ya sənədlər arasında uyğunsuzluq olduqda imtahana buraxılmayacaqsınız!**

**2.** Göstərilən sənədləri imtahan binasının giriş qapısında sənədləri yoxlayan mühafizə əməkdaşlarına təqdim edib buraxılış vərəqənizdə göstərilmiş müvafiq kodlu zala gedin.

## SINAQ İMTAHANI İŞTİRAKÇISININ İMTAHAN ZALINDA GÖRƏCƏYİ İŞLƏR:

**1.** İmtahan zalında "İmtahana buraxılış vərəqəsi"ndə göstərilən sırada və yerdə oturduqdan sonra nəzarətçinin izahatını diqqətlə dinləyin. Aydın olmadıqda əlinizi qaldırıb nəzarətçiyə müraciət edin.

**2.** İzahat işi qurtardıqdan sonra sizə üzərində iş nömrəniz, soyadınız, adınız və atanızın adı çap edilmiş "Cavab kartı" paylanır. "Cavab kartı"nı qara və ya tünd göy rəngdə yazan mürəkkəb axıtmayan diyircəkli qələmlə doldurun. "Cavab kartı"ndakı məlumatlar optik qurğu vasitəsilə oxunur. Ona görə də "Cavab kartı" ilə işləyərkən ehtiyatlı olun. Dairələri tam qaralayın (nümunə●), kartın əks üzünün qabarmaması üçün qələmi bərk basmayın. Kartı əzmək, ləkələmək, zədələmək və cırmaq olmaz.

**❗ DİQQƏT! Korlanmış "Cavab kartı" dəyişdirilmir.**

"Cavab kartı"nın 1-ci bölməsində iş nömrəniz, soyadınız, adınız və atanızın adı çap edilmişdir. Özünüz haqqında çap edilmiş həmin məlumatları yoxlayın. Uyğunsuzluq aşkar etdikdə mütləq nəzarətçiyə müraciət edib məsələyə aydınlıq gətirin.

2-ci bölmədə özünüz haqqında məlumatı yazın və bu bölmədəki qaydalara zidd hərəkətə yol verməyəcəyiniz barədə Bəyannamə ilə tanış olun. "Cavab kartı"nda çap edilmiş məlumatların düzgünlüyünü və Bəyannamə ilə tanış olduğunuzu öz imzanızla təsdiq edin.

3-cü bölmədə sizə veriləcək "Sual kitabçası"nın NÖMRƏSİ göstərilmiş və VARİANTına uyğun dairə qaralanmışdır.

4-cü bölmədə İş nömrənizin hər bir rəqəmini ardıcıl olaraq damalara yazıb, hər bir damanın altındakı sütunda uyğun rəqəmi tapıb, onun yerləşdiyi dairəni qaralayın. Bu zaman diqqətli olun: hər sütunda yalnız bir dairə qaralanmalıdır. Bu bölmədə həmçinin soyadınızı, adınızı, atanızın adını müvafiq sətirlərə yazın.

> **DİQQƏT! Sizə verilən sual kitabçası cavab kartının 3-cü bölməsində göstərilən sual kitabçanızın nömrəsinə, qaralanmış varianta və ixtisas qrupuna uyğun olmazsa, dərhal nəzarətçiyə müraciət edin.** Belə ki, imtahan nəticələriniz qiymətləndirilərkən cavablarınız "Cavab kartı"nızda qaralanmış varianta, sual kitabçanızın nömrəsinə və buraxılış vərəqənizdə qeyd olunmuş ixtisas qrupuna uyğun "Sual kitabçası"nın doğru cavabları ilə müqayisə ediləcəkdir. "Sual kitabçası"nın sizə düzgün təqdim olunduğuna əmin olun.
>
> **DİQQƏT!** İngilis və rus dilləri üzrə test tapşırıqları əsas kitabçadadır. Digər xarici dillər (alman, fransız, ərəb, fars) üzrə test tapşırıqları ayrıca bir kitabçada təqdim olunur.

Nəzarətçi sual kitabçalarını açmağa icazə verdikdən sonra onu vərəqləyərək çap qüsurlarının olub-olmamasını yoxlayın. Belə qüsurlar varsa, nəzarətçiyə müraciət edin.

**3.** "Sual kitabçası"nın üzərində iş nömrənizi, soyadınızı, adınızı, atanızın adını və imtahan verdiyiniz zalın kodunu mütləq yazın.

**4.** "İmtahan başlandı!" elan edilən andan suallara cavab vermək üçün ayrılan **3 saat** vaxtdan səmərəli istifadə edin. Cavabların "cavab kartı"nda qeyd olunması (uyğun dairələrin qaralanması) üçün sərf olunan vaxt bu müddətə daxildir.

**5.** “Cavab kartı”nın cavablar üçün ayrılmış hissəsi sual kitabçasındakı sualların ardıcıllığına uyğun olaraq sıralanmışdır.

Sual kitabçasında 1-dən 120-dək **çoxseçimli test tapşırıqları** təqdim olunur**. Çoxseçimli test tapşırıqlarında** hər suala verilmiş beş cavabdan (bunlar A, B, C, D, E hərfləri ilə işarələnmişdir) düzgün hesab etdiyiniz yalnız bir cavabı seçin və “Cavab kartı”nda ona uyğun dairəni qaralayın. Əgər bir suala cavab olaraq birdən çox dairə qaralanarsa, həmin cavab səhv hesab edilir.

***121-dən 125-dək suallar “Riyaziyyat” fənni üzrə açıq tipli test tapşırıqlarıdır***. 121-123 saylı test tapşırıqlarının hər birinin cavabını müvafiq damalara rəqəmlərlə sol xanadan başlayaraq yazın və sonra hər damanın altındakı sütunda uyğun rəqəmi (cavab kəsr ədədlə ifadə olunursa, vergülü də) tapıb onun yerləşdiyi dairəni tam qaralayın (əgər eyni bir sütunda birdən çox dairə kodlaşdırılarsa, onda cavab səhv hesab edilir), 124-125 saylı test tapşırıqlarında təqdim edilən 2 çoxluğun elementləri (suallar və cavablar) arasındakı uyğunluğu tapın və sualın nömrəsinin altındakı sütunda hər sualın cavabına uyğun olan bir və ya bir neçə hərfli dairəni tam qaralayın.

**Ballarınız hesablanarkən yalnız “Cavab kartı”nda qaraladığınız cavablar nəzərə alınır.**

**Açıq test tapşırıqları üzrə nəticələr hesablandıqda səhv cavablar ümumi nəticəyə təsir göstərmir.**

❗ **DİQQƏT! Başqasının cavablarını köçürməyin. Diqqətli olun ki, sizin cavablarınızı heç kim köçürməsin. Nəticələriniz yoxlanarkən xüsusi araşdırma zamanı köçürmə faktı aşkar edilərsə, sınaq imtahanı nəticələriniz ləğv olunacaqdır.**

6. Hesablamaları və qeydləri aparmaq üçün “Sual kitabçası”nda boş yerlər nəzərdə tutulmuşdur. Buna görə də əlavə kağızdan istifadə etməyə icazə verilmir.

7. İmtahanı bitirib getmək istəyən iştirakçı cavab kartını nəzarətçiyə təhvil verir.

8. **“Cavab kartı”nın təhvil verilməsinə görə iştirakçı şəxsən məsuliyyət daşıyır.** “Cavab kartı”nı nəzarətçiyə təhvil verdikdən sonra “İmtahana buraxılış vərəqəsi”ndə nəzarətçiyə imza etdirməlisiniz. “Cavab kartı”nı nəzarətçiyə təhvil verməsəniz, imtahan nəticələriniz ləğv olunacaqdır.

## İŞTİRAKÇIYA QADAĞANDIR:

- imtahana mobil telefon, kalkulyator, konspekt, lüğət, cədvəl, məlumat kitabçası və digər yardımçı vasitələr gətirmək və onlardan istifadə etmək;
- yandırıcı, partlayıcı, kəsici, deşici və digər bu növ əşyalarla imtahan binasına girmək, özü ilə siqaret gətirmək;
- sual kitabçaları paylandıqdan sonra hər hansı bir səbəbə görə imtahan zalını tərk edib yenidən geri dönmək;
- nizam-intizam qaydalarını pozmaq;
- zalda yerini dəyişmək, gəzişmək, yerindən durmaq və bu kimi hallarla imtahanın gedişinə mane olmaq;
- başqasının cavab kartına, sual kitabçasına baxmaq və ya öz cavab kartına, sual kitabçasına başqasının baxması üçün şərait yaratmaq;
- nəzarətçiyə test tapşırıqlarının həllində kömək üçün müraciət etmək;
- “Cavab kartı”nı nəzarətçiyə təhvil vermədən imtahan zalından çıxmaq.

**Belə hallar aşkar olunarsa, həmin iştirakçı imtahandan xaric olunacaq və onun imtahan nəticələri ləğv olunacaqdır.**

Əgər siz sınaq imtahanı zamanı qaydaların pozulması halları ilə rastlaşsanız, mütləq nəzarətçiyə müraciət edin, nəzarətçi lazımi ölçü götürməzsə, imtahan rəhbərinin zala gəlməsini tələb edin.

Nəzarətçi müəllimlərin fəaliyyəti imtahan prosesinin tələblərinə uyğun olmazsa, bu barədə imtahan rəhbəri zala gəldikdə ona məlumat verin.

***Sizə müvəffəqiyyətlər arzulayırıq!***